**Emin Əli oğlu ƏLİRZAYEV**
iqtisad üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
E-mail: alirzayev@gmail.com

# MÜASİR ŞƏRAİTDƏ SOSİAL MÜDAFİƏNİN TƏŞKİLİNİN AKTUAL PROBLEMLƏRİ: AZƏRBAYCAN RESPUBLİKASI PRİZMASINDAN NƏZƏRİ-TƏHLİLİ BAXIŞ

**Xülasə**

**Tədqiqatın məqsədi -** müasir şəraitdə qlobal müstəvidə sosial müdafiə ilə bağlı formalaşmış nəzəri baza ilə əlaqədə Azərbaycan Respublikası timsalında sosial müdafiənin təkmilləşdirilməsi məqsədilə sosial müdafiənin təşkilinin aktual problemlərinin yerli (lokal) xüsusiyyətlər nəzərə alınmaqla sistemli və elmi-nəzəri əsaslandırılmış konseptual bazanın formalaşdırılmasına töhfə verilməsidir.

**Tədqiqatın metodologiyası** – Tədqiqat prosesi sahə üzrə idarəetmə səviyyəsində sosial müdafiənin təşkilinin təkmilləşdirilməsi istiqamətində formalaşmış beynəlxalq və yerli praktikadan nəzəri çıxarışlara, həll yollarına və ümumiləşdirilmiş ən yaxşı nəticələrə söykənməklə ümumi elmi təhlil metodlarına əsaslanır.

**Tədqiqatın nəticələri** – Azərbaycanda sosial müdafiə sisteminin inkişafının mövcud və perspektiv inkişaf mərhələsində əhalinin daha yüksək rifahına şərait yaradan müdafiə ilə əhatə olunması üçün idarəetmə səviyyəsində soaial müdafiənin aktual təşkilati məsələlərini əks etdirir.

**Açar sözlər:** sosial müdafiə, sosial müdafiənin təşkili, sosial müdafiənin idarə olunması, sosial müdafiənin komponentləri, sosial müdafiənin təkmilləşdirilməsi

**UOT:** 334
**JEL:** H53; H55; I38
**DOI:** https://doi.org/ 10.54414/LQUV4300

## Giriş

Müasir şəraitdə tarixi inkişaf prosesi nəticəsində sosial müdafiə ümumən formasiyaya uğramaqla dövlət aparatı tərəfindən əhalinin sosial-iqtisadi əhəmiyyətli problemləri və məsələlərinin həlli istiqamətində formalaşan münasibətlərin tənzimlənilməsinin həyata keçirildiyi kompleks idarəetmə mexanizmi kimi əhəmiyyətlilik qazanmışdır. Sosial müdafiə - özü dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca mexanizmi kimi çıxış etməklə, onun effektliyi idarəetmə səviyyəsində verilən qərarların optimallıq xüsusiyyətləri kəsb etməsi səviyyəsi ilə birbaşa əlaqəlidir. Sosial və iqtisadi mahiyyətli münasibətləri eyni zamanda əhatə edən spesifik idarəetmə istiqaməti olaraq, sosial müdafiə dövlətin məqsədlərinə uyğun olaraq davamlı təkmilləşdirilmə tələb edən sosial spesifikalı iqtisadi sahə mahiyyətini daşımaqdadır.

Bu mənada dəyişən sosial və iqtisadi şərtlər müqabilində sosial müdafiənin təkmilləşdirilməsinin də idarəetmə səviyyəsində nəzarətə götürülməsi baxımından təkmilləşdirilmə istiqamətində müxtəlif zəruri tənzimləmə aspektləri formalaşmaqdadır.

Bu aspektlər arasında təbii olaraq sosial müdafiənin təşkili məsələlərinin mövcud idarəetmə resurslarına uyğun adekvat şəkildə qurulması sosial müdafiənin effektivliyini təmin etmək imkanları ehtiva etməkdədir. Bu idarəetmə resursları arasında təbii ki, maliyyə resurslarından istifadə imkanları ilə sosial müdafiənin müsbət təsirləri arasında mütənasib əlaqələrin olduğu qəbul edilsə də, o da qəbul edilməlidir ki, idarəetmənin bütün mümkün aspektlərdən optimal təşkili ilə bağlı tədbirlər rəhbər tutulmadan sosial müdafiənin inkişaf xəttilə həyata keçirilməsi də mümkün olmamaqdadır.

Bu baxımdan istənilən milli sosial müdafiə modeli üzrə təkmilləşdirilmə məqsədli addımların atılması yerli şəraitdə formalaşmış sosial müdafiə mexanizmləri üzrə münasibətlərin, problemlərin və fəaliyyət nəticələrinin bütün aspektlərdən qiymətləndirilməsini tələb edir.

Sosial dövlət modeli ilə irəliləyən respublikamızda əhalinin sosial müdafiəsinin o qədər də uzun olmayan keçmişində olduqca əhəmiyyətli nəticələrin əldə olunmasına baxmayaraq, idarə olunmasında sistemlilik və davamlılığın tələb olunduğu sahə olaraq, Azərbaycanda sosial müdafiənin təkmilləşdrilməsi istiqamətində sosial müdafiənin təşkili ilə bağlı aktual problemlərin və bu əsasda inkişaf üçün zəruri əhəmiyyət kəsb edən növbəti strateji hədəflərin müəyyən olunmasına imkan verəcək elmi yanaşmalara söykənən təhlil və dəyərləndirilmələrin aparılması elmi-nəzəri və praktiki aktual əhəmiyyət kəsb etməkdədir.

**Müzakirə**

**Problemin öyrənilməsi.** Sosial müdafiə - sosial və iqtisadi mahiyyətli elementləri özündə birləşdirən bir fenomen olaraq, bir növ, sistemli şəkildə yanaşma olmadan, idarəetməyə məruz qalmadan və ya iqtisadiyyatın inkişafına paralel olaraq öz-özünə inkişaf edə bilən bir sistem mahiyyətini kəsb etməməkdədir. Beynəlxalq səviyyədə, o cümlədən Azərbaycan modeli çərçivəsində sosial müdafiənin təşkili məsələlərinin tədqiqi əhəmiyyəti ilə bağlı axtarışlarımız mövzunun əhəmiyyətini göstərməkdədir. Araşdırma nəticələri onu qeyd etməyə imkan verir ki, azərbaycandilli mənbələrdə sosial müdafiənin ayrı-ayrı istiqamətləri üzrə təkmilləşdirilmə əhəmiyyətli yazılara rast gəlinsə də, qarşılıqlı şəkildə "sosial müdafiənin təşkili məsələləri" və "sosial müdafiənin təkmilləşdirilməsi" mövzuları arasında əlaqələrin kompleks təhlilinə həsr olunmuş və bu mənada ölkədə sosial müdafiənin keyfiyyətcə yaxşılaşdırılmasının onun təşkili əhəmiyyətli problemlərin həllindən birbaşa asılılığının əsaslarını açan tədqiqatlar aparılmamışdır.

Bununla belə, müxtəlif yerli elmi mənbələrdə mövzu ilə bağlı əhəmiyyətli elementləri özündə ehtiva edən mülahizələrin də olduğunu müşahidə etmək mümkündür. Eyni zamanda təhlil nəticələri sosial müdafiənin nəticəliliyi ilə onun təşkili problemləri arasında əhəmiyyəli asılılıq əlaqəsinin olduğu barədə fikrin möhkəmlənməsinə təkan verir:

Sosial müdafiə - sosial infrastrukurun qurulması, bazarın qeyri-təkmil xüsusiyətlərindən irəli gələn gəlir bərabərsizliyinin yumşaldılması istiqamətində iqtisadi resursların bölgüsü mexanizmi kimi istifadə olunmaqla, sosial siyasətin də prioritet həlqəsi hesab edilir [1, s. 116-117].

Əhalinin həyat səviyyəsinin və yaşayış keyfiyyətinin yüksəldilməsində, əhalinin təkrar istehsalında, milli iqtisadiyyatın və cəmiyyətin inkişafındakı əhəmiyyəti baxımından sosial müdafiə cəmiyyətin həyat şərtlərini formalaşdıran sosial instututları əhatə edən sistem kimi – sosial infrastrukturu formalaşdıran əsas sahələrindən biri hesab edilir. Dövlətin sosial siyasətinin məqsədlərinin həyata keçirilməsi üçün sosial infrastruktur makro (dövlət səviyyəsində) və mikro səviyyədə idarə edilir ki, sosial müdafiə də bu idarəetmənin tərkib hissəsi kimi qəbul edilir. Sosial müdafiə cəmiyyətdə mənəvi dəyərlərlə yanaşı, iqtisadi imkanları da formalaşdırmaqda təsirli hesab edilməklə, sosial infrastrukturun inkişafında ayrıca funksiya olaraq qəbul edilir [2, s. 13-17].

Sosial siyasətə kompleks yanaşma onun tərkib istiqamətlərinin əsasən sosial müdafiə əhəmiyyətli altsahələri əhatə etdiyini göstərməklə yanaşı, burada əsas məqamlar arasında dövlətin sosial siyasətinin həyata keçirilməsini formalaşdıran amillər arasında dövlətin sosial öhdəliklərinin icra edilməsinin təşkili mexanizmlərinin də xüsusilə ön plana çəkildiyi aydın anlaşılmaqdadır [3, s. 345-347].

Bu mənada sosial müdafiə xidmətlərinin də (xüsusən pensiya və müavinətlərlə təminat, tibbi-sosial reabilitasiya, əmək münasibətlərinin və bazarının tənzimlənilməsi, məşğulluq, ünvanlı dövlət sosial yardımı, demoqrafik siyasət və s.) müasir şəraitdə dövlətin funksiyaları ilə, belə demək mümkünsə, çulğalaşması baxımından dövlətin öhdəlikləri kimi qəbul edilərək sosial müdafiənin təşkili məsələlərinin keyfiyyətlə icrasına imkan verəcək təşəbbüslərin reallaşmasına çalışılması əhəmiyyətini önə çıxarır.

Dövlət tərəfindən həyata keçirilən sosial müdafiə islahatlarının arzuolunan hədəflər istiqamətində məqsədyönlü nəticələrlə müşayiət

olunması üçün sosial müdafiənin ilk növbədə yerli sosial və iqtisadi xüsusiyyətlərə uyğunlaşdırılma şəraitində tətbiqi zəruri əhəmiyyətlidir.

**Qlobal əhəmiyyəli çağırışlar.** Hazırda qlobal səviyyədə baş verən müxtəlif sosial və iqtisadi, demoqrafik proses və tendensiyalar sosial müdafiə sistemləri qarşısında yaranan problemlərlə mübarizədə uyğun həll yollarının axtarılıb tapılmasını və onların qısa müddətdə tətbiqini şərtləndirən tənzimləmə zərurəti ilə bağlı məsuliyyətlər yaratmaqdadır. Məsələn, 2004-cü ildə İngiltərədə İnkişaf Tədqiqatları İnstitutu tərəfindən hazırlanılmış tədqiqat materialında sosial müdafiənin inkişafında transformativliyin təmin olunmasının əhəmiyyətinə toxunulmaqla, Uqanda Respublikası prizmasından son on ildə Uqandanın sosial müdafiə sistemində islahatların aparılması üçün göstərilən səylər çərçivəsində 1996-cı ildə Beynəlxalq Əmək Təşkilatı (BƏT/ing. ILO) və Birləşmiş MillətlərTəşkilatının İnkişaf Proqramının (BMTİP/ing. UNDP) hökumətə təqdim etdiyi inkişafa dair müvafiq hesabatda sosial müdafiənin üç səviyyəli strukturunun tətbiqi edilməsi tövsiyə edilmişdir. Həmin sənəddə ən çox ehtiyacı olanlar üçün vergilər hesabına maliyyələşdirilən ilkin səviyyəli sosial xidmətlərin və minimum gəlir səviyyəsinin təmin olunması, işəgötürənlərin və işçilərin həmrəylik prinsipilə ödədikləri vəsaitlərə əsaslanan icbari sosial sığorta səviyyəsinin, habelə fərdlərə və işəgötürənlərə əlavə müdafiə formalarının əldə edilməsinə imkan verən tamamlayıcı sosial müdafiə imkanlarının yaradılmasının təmin edilməsinin vurğulanıldığı qeyd olunmuşdur [4, s.16].

Qlobal sosial-iqtisadi məkanın tərkib hissəsi olaraq Azərbaycanın sosial müdafiə sistemi də artan və yeni formalar alan iqtisadi və sosial tələblər qarşısında davamlı olaraq lokal şərtlərin hərtərəfli qiymətləndirilməsilə, yerli xüsusiyyətlər nəzərə alınmaqla ən optimal həll mexanizmlərinin müəyyən olunmasını tələb edir.

Günümüzdə sosial müdafiənin maliyyə potensialının və imkanlarının zəifləməsinə gətirib çıxaran - əhalinin təkrar istehsalının azalması, əhali yaşlanması, daxili və beynəlxalq miqrasiya, yeni (qeyri-ənənəvi) əmək fəaliyyəti formalarının yaranması, kölgə iqtisadiyyatının mövcudluğu, dünyanın bəzi regionlarında əhalinin uçotunun və ya qeydiyyatlılığın bütün ölkəni əhatə etməməsi, savadlılıq və məlumatlılıq səviyyəsinin aşağı olması, əhali arasında üstün rol oynayan mənəvi stereotiplərlərin mövcudluğu, iqtisadi potensialın regional paylanması üzrə regional fərqlənmələr, əmək və istehsal resurslarının tarazlı paylanmaması və bunların uzantısı kimi ortaya çıxan - gəlir qeyribərabərsizliyi, yoxsulluq, yalançı urbanizasiya və s. kimi sosial və iqtisadi əhəmiyyətli probelmlər milli səviyyələrdə sosial müdafiənin inkişafında tədricən istənilən halda maneə yaradan çətinliklərin aradan qaldırılması və ya mənfi təsirinin azaldılması istiqamətində davamlı sosial müdafiə strategiyalarının işlənilməsini tələb edir ki, bu da sosial müdafiənin təşkili mahiyyətini kəsb etməklə bu mövzunun ayrıca elmi və idarəetmə problemi olaraq ortaya çıxmasını və bununla mübarizədə uyğun yanaşmaların işlənilməsini labüd edir. Aşağıdakı təsvirdə əks etdirdiyimiz kimi, qlobal miqyasda müasir sosial müdafiə sistemləri qarşısında yaranan problemləri 3 ayrı ümumiləşdirilmiş istiqamətdə fərqləndirə bilərik (Şəkil 1.):




**Şəkil 1. Hazırda sosial müdafiə sistemlərinin inkişafı ilə əlaqədar prioritet problemlər**
*(müəllif tərəfindən hazırlanmışdır)*

**Cədvəl 1.**

**Sosial müdafiənin təşkili komponentləri**

(müəllif tərəfindən hazırlanmışdır)

| Meyarlar | Fəaliyyətin əsas məzmunu |
|---|---|
| **1. İdarəetmə strukturu**<br>1.1. Milli səviyyə<br>1.2. Lokal səviyyə | Hökumət tərəfindən sosial müdafiə istiqamətlərinin tənzimlənməsinə məsul idarəetmə qurumları (və onların struktur bölmələri) yaradılır, həmin qurumlar vasitəsilə siyasət və fəaliyyət çərçivələri müəyyənləşdirilir (lokal səviyyədə isə - yerli hökumət qurumları tərəfindən) |
| **2. Sosial müdafiə proqramlarının növü**<br>2.1. Sığorta əsaslı proqramlar | Məcburi dövlət sosial sığortası (sığorta-pensiya sistemi), işsizlikdən sığorta, icbari tibbi sığorta, (Azərbaycan nümunəsində) dövlət icbari şəxsi sığortası |
| 2.2. Ünvanlı dövlət sosial yardımı | Pul və natura formada aşağı gəlirli əhaliyə əvəzsiz maliyyə yardımı |
| 2.3. Əmək bazarı proqramları | Peşə və ixtisas artırılması, işaxtaranlara işədüzəlmə ilə bağlı dəstək göstərilməsi və s. |
| 2.4. Digər müvafiq proqramlar | |
| **3. Sosial müdafiə təminatçıları (subyektləri)**<br>3.1. Dövlət orqanları (və qurumları) | Sosial müdafiə üzrə siyasətin hazırlanması və icrası ilə məşğul olan nazirliklər, komitələr və s. |
| 3.2. Qeyri-hökumət təşkilatları (QHT) | Müəyyən sosial həssas əhali qruplarına məşvərət, istiqamətləndirmə, məlumatlandırma və müxtəlif dəstək göstərilməsi ilə bağlı fəaliyyət |
| 3.3. Beynəlxalq təşkilatlar | Milli sosial müdafiə sistemlərinə mütəxəssislər, maliyyələşdirmə və müsbət təcrübələrin mübadiləsində dəstək göstərilməsində iştirak edən - Dünya Bankı, Unicef, Beynəlxalq Əmək Təşkilatı (BƏT) və s. |
| **4. Maliyyələşdirilmə**<br>4.1. Dövlət maliyyə resursları | Sosial müdafiə sistemlərinin əsasən ödənilən sığorta haqları hesabına formalaşan fondlar (Azərbaycan nümunəsində - dövlət sosial müdafiə fondu, işsizlikdən sığorta fondu kimi), eləcə də qismən dövlət büdcəsi vəsaitləri hesabına bəzi sosial müavinətlərin ödənilməsi |
| 4.2. Beynəlxalq yardımlar | Beynəlxalq təşiklatlar tərəfindən müxtəlif sosial müdafiə proqramlarının müxtəlif (xüsusən inkişaf etməkdə olan) ölkələrdə həyata keçirilməsinə dəstək məqsədilə vəsait ayrılması |
| **5. Monitorinq və dəyərləndirilmə**<br>5.1. Məlumatların toplanması | Sosial müdafiə siyasətinin (islahatların) işlənilməsi üçün əhali gəlirləri, məşğulluq, yoxsulluq, demoqrafik vəziyyət və s. istiqamətlərdə məlumatların (və göstəricilərin) toplanılması |
| 5.2. Dəyərləndirilmə | Tətbiq edilən proqramların mütəmadi olaraq effektivliyinin, səmərəliliyinin dəyərləndirilməsinin aparılması, sosial müdafiə əhəmiyyətli xidmətlərin göstərilməsi keyfiyyətinin yaxşılaşdırılması |
| **6. İctimai iştirakçılıq**<br>6.1. İştirakçılıq tərtibatı | Sosial müdafiə proqramlarının tərtibi və icrasında ictimaiyyətin iştirakının cəlb olunması |
| 6.2. Əks-əlaqə mexanizmləri | Sosial müdafiə xidmətlərinin benefisiarları üçün töhfə vermək və rəy bildirilməsi imkanları |
| **7. Qanunvericilik çərçivəsi və normativ tənzimləmə** | Sosial müdafiə ilə bağlı siyasət çərçivəsinin və sosial müdafiə hüquqlarını aydın ifadə edildiyi, hesabatlılıq, sistemdaxili və ictimai əlçatanlığa şərait yaradan qanunvericilik bazasının işlənilməsi |

Bu problemlərin mərkəzində istənilən halda maliyyə resurslarından rasional istifadə edilməsi problemləri dayanmaqla, hesab edirik ki, onunla qarşılıqlı asılılıq əlaqəsində olan digər çoxspektrli problemlərin ümumiləşdirilmiş ifadəsi kimi, digər iki - sosial müdafiənin sosial əhatəliliyinin təmin edilməsi və sosial ədalətin qorunub saxlanılması istiqamətlərinin gözlənilməsi müasir şəraitdə hər bir milli sosial mü-

dafiə sisteminin fəaliyyətinin təkmil əsaslarla inkişafını təmin etməyə, mövcud hərtərəfli resursların əhalinin daha keyfiyyətli sosial müdafiəsinə yönəldilməsinə imkanlar açmalıdır.

Yuxarıdakı sxemlə təsvirini verdiyimiz təşkilati quruluşun mövcudluğu sosial müdafiə sistemlərinin əhatəliliyini, koordinasiyalılığını və əhali ehtiyaclarına fokuslanmasını təmin etməyə xidmət göstərir.

**Sosial müdafiənin təkmilləşdirilməsinin müasir baza aspektləri.** Bütün sosial müdafiə sistemləri, həmçinin Azərbaycan Respublikası nümunəsində də sosial müdafiənin davamlı təkmilləşdirilməsi məqsədindən çıxış edərək tətbiqi əhəmiyyəti nöqteyi-nəzərdən müasir şəraitdə sosial müdafiənin qarşılıqlı asılılıq əlaqəsində olan aşağıdakı aspektlərdə təkmilləşdirilməsinə diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir:

- sosial müdafiənin təşkilati-idarəetmə əhəmiyyətli məsələlərinin həlli;
- sosial müdafiədə maliyyə resurslarının idarə edilməsində səmərəliliyin gözlənilməsi;
- sosial müdafə xidmətlərinin göstərilməsində sistemliliyin təmin edilməsi (və ya sosial müdafiənin sistemli təşkili);
- sosial müdafiənin sosial müdafiənin təşkili ilə bağlı zəruri prinsiplərin gözlənilməsilə təşkilinin vacibliyi;
- sosial müdafiənin idarəetmə əsaslarının normativ müstəvidə təkmilləşdirilməsi;
- sosial müdafiənin innovativ üsullarla təmin edilməsi ilə bağlı davamlı iş aparılması.

Hazırda Azərbaycan Respublikası prizmasından baxılmaqla sosial müdafiənin təşkili ilə bağlı müasir *təşkilati-idarəetmə məsələlərinin* baza komponentlərini aşağıdakı cədvəl tərkibində tərtib etməklə təsnifatlaşdıra bilərik:

**Sosial müdafiənin prioritet təşkilati-idarəetmə aspektləri.** Sosial müdafiədə *maliyyə resurslarının səmərəli idarə olunması* sosial müdafiə sahəsi üzrə idarəetmə aparatından vəsait xərclənmələrini tələb edən bütün sosial müdafiə xidmətləri sahələrində alternativ əhəmiyyətli istiqamətlər arasında sosial fayda və maliyyə qənaətcilliyi hədəfləri diqqət mərkəzində saxlanılmaqla xərclərin konkret məqsədlər çoxluğu arasında optimal bölüşdürülüməsini, büdcələrin, smeta layihələri üzrə tələbatların faktiki (real) xərclər və maksimal dəqiqiliklə qiymətləndirilən proqnozlar əsasında əsaslandırılmış şəkildə müəyyən olunmasını, həmçinin ayrılmış vəsaitlərin məqsədyönlü, effektiv və nəticəli xərclənməsi ilə bağlı kompleks və sistemli nəzarətin aparılması ilə bağlı yanaşmaların həyata keçirilməsini tələb edir. Bu zaman maliyyə vəsaitlərinin idarə olunmasında qənaət prinsipinin təmin olunması sosial müdafiə sisteminin inkişafının əsas təməlini təşkil etsə də, eyni vaxtda istər dövlət büdcəsi mənşəli, istərsə də büdcədənkənar fondlar üzrə, eyni zamanda qeyri-dövlət maliyyə mənbələri (qeyr-dövlət pensiya fondları və s.) hesabına maliyyə imkanlarının sosial müdafiə sisteminin ümumi maliyyə mənbəyinə cəlb edilməsi kimi məsələlərin prioritet olaraq mənimsənilməsi hər bir ölkədə sosial müdafiənin genişlənməsinə xidmət edən idarəetmə yanaşmaları əhəmiyyətini kəsb edir.

Postsovet məkanınında sosial müdafiə sisteminin maliyyə problemləri ilə bağlı aparılan tədiqatlarda da sosial müdafiənin institusional strukturunun formalaşmasında və onun təkmilləşdirilməsi prosesində sistemli yanaşmanın olmaması postsovet məkanında inkişaf etməkdə olan ölkələrdə onun institutlarının sosial səmərəliliyinin və maliyyə sabitliyinin olmamasının səbəbi olaraq dəyərləndirilir [5].

*Sosial müdafiədə sistemlilik* dedikdə, əhalinin daha keyfiyyətli sosial müdafiə ilə təmin olunması məramı istiqamətində xidmət benefisiarlarına hər bir benefisiarın ehtiyacına uyğun sosial müdafiə sahələri üzrə hüququ olduğu bütün mümkün xidmətlərdən eyni vaxtda istifadə edə bilməsi üçün müvafiq idarəetmə infrastrukturunun mövcudluğu başa düşülməlidir. Yalnız sosial müdafiə xidmətlərinin sistemli təşkilati quruluşa malik olması əhalinin (fərdlərin) eyni vaxtda sosial müdafiə xidmətlərindən maksimum və hərtərəfli istifadə etməsi imkanını təmin edə bilər. Bu baxımdan lokal (milli) xüsusiyyətlər və beynəlxalq təcrübə də nəzərə alınmaqla sosial müdafiə xidmətlərinin regional, sosial qruplara yönələn əhatəliliyinin, xidmət nomenklaturasının genişlənməsinə fokuslanmış əsasda təşkili yanaşması milli sosial müdafiə sistemlərinin effektiv və uğurlu fəaliyyətini təmin edə bilər.

Sosial müdafiənin təkmilləşdirilməsi üçün onun idarəetmə əsaslarının *normativ müstəvidə tənzimlənməsi* sosial müdafiənin təşkilinin və

əhali ehtiyaclarına uyğunluğunun fundamental məsələlərindəndir. Effektiv sosial müdafiəyə nail olunması üçün qanunvericilik normalarının davamlı olaraq, sosial müdafiənin təşkili ilə bağlı müvafiq prinsiplər gözlənilməklə və elmi cəhətdən aparlmış təhlil nəricəsində gəlinmiş nəticələr nəzərə alınmaqla işlənilməsi vacib şərtlərdəndir. Burada da məsələyə ölkədə formalaşmış sosial müdafiə mexanizmlərinin ümumi quruluşu bazasında sistemli yanaşılması prerekvizit əhəmiyyətli kəsb edir. Sosial müdafiə ilə bağlı qanunvericilik ölkənin ümumi qanunvericilik sisteminin tərkib hissəsi olmaqla normayaratma baxımından ixtisaslaşmış vahid yanaşmalar əsasında hazırlanılma tələb etməsinə baxmayaraq, sosial müdafiə sahəsinin spesifik cəhətlərindən irəli gələrək müasir dövrdə bu sahədə qanunvericiliyin formalaşdırılmasının əsas xüsusiyyətləri qismində informasiyaların (müddəaların) açıqlığı, aydınlığı, anlaşıqlılığı və əlçatanlığı hesab edilməlidir. Belə ki, sosial müdafiə üzrə normativ tənzimləmə çərçivəsi əhali (benefisiar) üçün sərbəst məlumatlanma və sosial müdafiə proqramlarına münasibətdə fərdi planlama imkanı yaratmalıdır. Bununla bərabər, sosial müdafiə üzrə qanunvericilik normalarının dəyişdirilməsi və ya onlara əlavə və düzəlişlər edilməsi prosedurlarının hansı sıxlıqla aparılması ilə sosial müdafiənin həyata keçirilməsi keyfiyyəti və ya effektivliyi arasında aslılıq əlaqəsinin olduğunu qiymətləndirmək olar.

Xüsusən müasir dövrdə qlobal səviyyədə sosial sığorta sistemləri qarşısında ayrıca çağırış kimi dayanan - qeyri-formal məşğulluq problemi ilə mübarizədə həll yollarından biri olaraq normativ çərçivənin boşluqların qarşının alınması istiqamətində tənzimlənilməsi və ya boşluqlara şərait yaratmayacaq şəkildə zəruri uyğunlaşdırılmasının təmin edilməsi hesab edilir [6].

*Sosial müdafiədə innovasiyaları* bu gün sosial müdafiə sistemində fəaliyyətin təşkili və təmin olunmasına müsbət təsir göstərən istənilən islahat yanaşması kimi qəbul etmək lazımdır.

Sosial müdafənin həyata keçirilməsinin nəhayət hədəfi olan - sosial rifahla innovasiyaların əlaqəsi bu gün beynəlxalq elmi tədqiqatlarla da reallıq hesab edilir [7].

Sosial müdafiədə innovasiyalar strateji və texnoloji tənzimləmə yanaşması müstəvisində tədbirlər toplusunu əhatə edir.

Sosial müdafiədə innovativ yanaşmaların özü də hazırkı şəraitdə müxtəlif aspektlərdə təzahür etməkdədir: Sosial müdafiə xidmətlərinə çıxışın, o cümlədən qeydiyyat və müraciət, sosial ödənişlərin (vəsaitlərin) benefisiarlar tərəfindən alınmasını asanlaşdıran rəqəmsal həllər (mobil proqramlar, onlayn platformalar və digər texnologiyalar, sosial ödənişlərin saxtakarlıqdan qorunmaqla təmin edilməsi üçün "blokçeyn" texnologiyasından istifadə) [8, s. 288], sosial müdafiə proqramlarının tərtibi, təşkili, icrası və monitorinqinin informasiya texnologiyası müstəvisində aparılmasını təmin edən təhlil və müqayisələrin aparılmasına, idarəetmə alqoritmlərinin qurulmasına imkan verən verilənlərdən geniş istifadə, milli səviyyədə yeni özünəməxus (fərqli) sosial müdafiə layihələrinin tətbiqi, sosial müdafiədə idarəetmə proseslərinin rəqəmsal bazada yerinə yetirilməsi, o cümlədən fərdlərə münasibətdə xidmətlərin icrası üçün qərar qəbulu prosesində şəxslər barəsində bütün təhlil tələb edən müxtəlif sahələrdən zəruri məlumatların (qeydiyyat, əmlak vəziyyəti, əmək fəaliyyəti, gəlirlər, ailə tərkibi, sosial keçmiş, maliyyə öhdəlikləri və s.) təhlilinə və emalına imkan verən inteqrasiya edilmiş mərkəzləşdirilmiş elektron informasiya idarəetmə sistemlərinin qurulması, sosial müdafiənin benefisiarlarının ehtiyaclarının öyrənilməsi zərurətilə əlaqədar sosial müdafiə proqramlarının hazırlanması və icrası mərhələsində ictimai iştirakçılığa yer verilməsi, ictimai rəyin öyrənilməsi, əmək bazarının real tələbləri və işaxtaranların sosial-iqtisadi maraqlarının uzlaşmasına imkan verən çevik (adaptiv) məşğulluq strategiyalarının hazırlanması, özəl sektorla və qeyri-hökumət təşkilatları, müxtəlif icmalarla sosial tərəfdaşlığın qurulması və proqramlı olaraq gücləndirilməsi, özəl sektorun müəyyən sosial müdafiə əhəmiyyətli fəaliyyətə cəlb edilməsi ilə bağlı addımlar, özəl sektorun sosial dəstək əhəmiyyətli tədbirlərə və ya layihələrə (maddi, mənəvi, sosial və s. istiqamətdə) qoşulması ilə bağlı iş aparılması və bununla bağlı könüllük meyllərinin stimullaşdırılması, böhranlı hallarda sosial müdafiənin təmin edilməsi ilə bağlı davamlılığın qorunub saxlanılmasına imkan verən mexanizmlərin

mövcudluğu sosial müdafiədə innovativ yanaşmanın müasir istiqamətlərini təşkil etməkdədir.

Bununla belə, sosial müdafiənin inkişafı onun qeyd etdiyimiz aspektlərində təkmilləşdirilməsi baş vermədən mümkün deyildir. Təşkilati-idarəetmə, maliyyə səmərəliliyi, normativ və innovativ aspektlərdə təkmilləşdirilmə ilə bağlı sistemli şəkildə eynizamanlı zəruri tənzimləmələr məqsədilə islahatlar aparılmadan sosial müdafiənin təkmilləşdirilməsinə nail olunması mümkün hesab edilməməkdədir. Sosial müdafiədə təkmilləşdirilmə tədbirlərinin nəticəsi kimi çıxış edən sosial müdafiənin inkişafı prosesində sadaladığımız aspektlərdə əməli təşəbbüslərin atılması halında belə, sosial müdafiənin mütərəqqi prinsiplərinin gözlənilməsinə əməl olunmadan sistemin keyfiyyətcə inkişafında müsbət nəticələr əldə edilməsinin mümkün olmaması sosial müdafiənin iqtisadi sahə olaraq spesifik idarəetmə xüsusiyyətlərinin nəzərə alınması əhəmiyyətini ön plana çıxarır.

Həmçinin qeyd etmək lazımdır ki, sosial müdafiənin inkişafı ilə bağlı mövzu çərçivəsində nəzəri-praktiki əhəmiyyətini verdiyimiz məsələlər mahiyyət etibarilə sosial müdafiə sahəsinin daxili inkişaf amillərini təşkil etməkdədir. Sosial müdafiənin inkişafı ilə bağlı təkmilləşdirici zəruri tənzimləmələrin müəyyən edilərək aparılması problemin bir tərəfini təşkil edirsə də, bu prosesin digər vacib tərəfi – sosial müdafiəni əhatə edən və onu daim təsir və təzyiq altında saxlayan kənar amillər toplusunun müəyyənləşdirilməsi və sosial müdafiə sisteminə mənfi təsirlərinin nəzarətə götürülməsinin vacib əhəmiyyətli olması ilə bağlıdır.

Beynəlxalq tədqiqatlar da göstərir ki, bu amillərin vacib aktual istiqamətlərindən biri - müasir şəraitdə iqtisadiyyatlarda qeyri-formal sektorun mövcudluğudur ki, bu amil də inkişaf etmiş iqtisadiyyatlar və inkişaf etməkdə olan iqtisadiyyatlarda (aşağı və orta gəlirli ölkələrdə) sosial müdafiənin təşkili ilə bağlı xüsusiyyət fərqlənmələrinin əsasında dayanmaqdadır. Bu problem əsasən sosial müdafiə proqramlarının, xüsusən gəlir müəyyənləşdirilməsilə əlaqədar olan sosial yardım proqramlarının təşkili ilə bağlı çətinliklərin xeyli dərəcədə fərqlənməsinə gətirib çıxarmaqda və eyni zamanda aydın şəkildə vergi-yığım sisteminin fəaliyyəti səviyyəsi ilə əlaqələndirilməkdədir [9, s.63-64], [10],

**Nəticə**

Beləliklə, sferanın fəaliyyəti sahəsinin məzmunundan asılı olaraq sosial müdafiə problemləri davamlı xarakter daşımaqla dövlət idarəetməsi və tənzimlənilməsi obyekti kimi çıxış edir, iqtisadiyyatın, eləcə də sosial münasibətlərin inkişafı prosesinin effekti olaraq yaranmaqla yanaşı, sahə üzrə çətinliklərin digər bir tərəfi - bilavasitə sosial müdafiə sisteminin subyektiv müstəvidə idarə olunmasına yanaşmalarla bağlıdır.

Hazırda Azərbaycanda sosial müdafiənin kompleks təşkili istiqamətində işlərin hələ də formalaşma mərhələsində olduğunu hesab etmək olar. Belə ki, özünü sosial müdafiənin tətbiq edilməkdə olan qabarıq mexanizmi kimi göstərən - sığorta əsaslı pensiya və sosial müavinətlərlə təminat (və ya sığorta-pensiya) sistemində əhəmiyyətli inkişaf görünsə də (xüsusən digər sosial müdafiə alətlərinə münasibətdə olmaqla), sosial müdafiənin hazırkı inkişafı mərhələsində ilk növbədə maliyyə, həmçinin getdikcə daha çox aktuallıq qazanan – vətəndaş məmnunluğu parametri kimi aktual aspektlərdə təkmilləşdirilmələrə diqqət yetirilməsi müasir şəraitdə sosial müdafiə sisteminin təkmilləşdirilmısi istiqamətində gedikcə aktual zərurət kəsb etməkdədir. İslahatların daha geniş əhatədə və intensivliklə həyata keçirilməsi isə başqa bir rakursdan sistemdaxilində sosil əhali qruplarına münasibətdə sosial ədalət prinsipinin qorunması üçün səylərin gücləndirilməsini, bu məqsədlərlə davamlı müşahidələrin və təhlillərin aparılmasını tələb etməkdədir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – məqalə Azərbaycanda sosial müdafiə proqramlarının işlənilməsi və təkmilləşdirilməsi ilə bağlı perspektivə hesablanmış və optimal qərarların verilməsi üçün konseptual-praktiki çərçivənin keyfiyyət formalaşması ilə bağlı meyarlar rolunda əhəmiyyətli hesab edilir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Azərbaycanın sosial müdafiə sisteminin mövcud tərtibatı bazasında mövcud sosial ehtiyaclar baxımından mütəxəssis baxışları zəminində ilk dəfə olaraq sosial müdafiənin struktur tək-

milləşdirilməsinin prioritet aspektlərinin əsas istiqamətləri, müasir təşkilati-idarəetmə məsələlərinin baza komponentləri fərqləndirilir, eyni zamanda həmin aspektlər üzrə fəaliyyətin təşkilinin sistemin inkişafına qarşılıqlı təsiri imkanlarının mahiyyəti verilir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Hacızadə, E.M, Sosiallaşan iqtisadiyyat, 2006, Bakı, Elm, 104 s.
2. Abdullayeva, R., Sosial sferanın iqtisadiyyatı, Bakı, 2009, 230 s.
3. Rəhmanov, F. Sosial sfera və sosial siyasət. Bakı, 2021, 438 s.
4. Devereux, S. & R. Sabates-Wheeler (2004) Transformative social protection. Working paper series, 232. Brighton: IDS. https://opendocs.ids.ac.uk/articles/report/Transformative_social_protection/26442910?file=48090889
5. Valieva, E. N., Yarullin, R. R., & Saraev, A. R. (2021). Institutions And Effectiveness Of Social Protection Of Population. In S. I. Ashmarina, V. V. Mantulenko, M. I. Inozemtsev, & E. L. Sidorenko (Eds.), Global Challenges and Prospects of The Modern Economic Development, vol 106. European Proceedings of Social and Behavioural Sciences (pp. 192-202). European Publisher. https://doi.org/10.15405/epsbs.2021.04.02.24
6. Castellacci, F. (2023). Innovation and social welfare: A new research agenda. Journal of Economic Surveys, 37(4), 1156-1191. https://doi.org/10.1111/joes.12537
7. Munodei, A., & Sibindi, A. B. (2023). Fintech innovation in social service provision: a bibliometric review. Social Sciences, 12(1), 47. https://doi.org/10.1111/joes.12537
8. Babaoğlu, C., & Karasoy, H. (2022). Blockchain in Public Administration: Usage Areas and Practices. Sosyoekonomi, 30(52), 283-297. URL: https://doi.org/10.17233/sosyoekonomi.2022.02.15
9. Banerjee, A., Hanna, R., Olken, B. A., & Lisker, D. S. (2024). Social protection in the developing world. URL:https://www.nber.org/system/files/working_papers/w32382/w32382.pdf
10. Torm, N., & Oehme, M. (2024). Social protection and formalization in low-and middle-income countries: A scoping review of the literature. *World Development*, *181*, 106662. https://doi.org/10.1016/j.worlddev.2024.106662

**Эмин Али оглы АЛИРЗАЕВ**
кандидат экономических наук
Азербайджанский Государственный Экономический Университет (UNEC)
электронная почта: alirzayev@gmail.com

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ: ТЕОРЕТИКО-АНАЛИТИЧЕСКИЙ ПОДХОД

**Резюме**

**Целью исследования** является содействие формированию системной и научно-теоретически обоснованной концептуальной основы современных проблем организации социальной защиты с учетом местных особенностей в целях совершенствования социальной защиты на примере Азербайджанской Республики в связи с теоретической основой, сформированной по социальной защите на глобальном уровне в современных условиях.

**Методология исследования** основана на общенаучных методах анализа, основанных на теоретических выводах, решениях и обобщении лучших результатов международной и отечественной практики, сформированных в целях совершенствования организации социальной защиты на уровне управления в сфере.

**Результаты исследования** отражают актуальные организационные вопросы управления охватом населения защитой, создающей условия для более высокого благосостояния на современном и перспективном этапах развития системы социальной защиты в Азербайджане.

**Ключевые слова:** социальная защита, организация социальной защиты, управление социальной защитой, компоненты социальной защиты, совершенствование социальной защиты.

**Emin Ali oglu ALİRZAYEV**
PhD in Economics
Azerbaijan State University of Economics (UNEC)
E-mail: alirzayev@gmail.com

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ: ТЕОРЕТИКО-АНАЛИТИЧЕСКИЙ ПОДХОД С ПРИЗМЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Abstract**

**The purpose of the study** is to contribute to the formation of a systematic and scientifically-theoretically substantiated conceptual basis for the current problems of organizing social protection, taking into account local characteristics, in order to improve social protection in the case of the Republic of Azerbaijan in connection with the theoretical basis formed on social protection at the global level in modern conditions.

**Research methodology -** The research process is based on general scientific analysis methods, based on theoretical conclusions, solutions and generalized best results from international and local practice formed in the direction of improving the organization of social protection at the management level in the field.

**The results of the study** reflect the current organizational issues of management towards covering the population with protection that creates conditions for higher well-being at the current and prospective stages of development of the social protection system in Azerbaijan.

**Keywords:** social protection, organization of social protection, management of social protection, components of social protection, improvement of social protection